AZƏRİ-AUDIT
AUDİTOR FİRMASI

AZERI-AUDIT
AUDITING FIRM

AZ-1033 Bakı, A.M.Cümə küçəsi 1C, mən.7
Tel:(+99412) 5117808; Mob:(+99450) 2101357

VOEN: 1300539751
E-mail: azeriaudit@mail.ru

7 apm., 1C A.M.Cuma St, Baku AZ-1033
Tel:(+99412) 5117808 Mob: (+99450) 2101357

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## "ATASIĞORTA" AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏHMDARLARINA VƏ İDARƏ HEYƏTİNƏ:

*Maliyyə hesabatları üzrə hesabat*

Biz "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2018-ci il tarixinə balans hesabatından və bu tarixdə başa çatmış il üzrə mənfəət və zərər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti barədə hesabatlarından, habelə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülasəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

*Maliyyə Hesabatları üzrə rəhbərliyin məsuliyyəti*

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun məsuliyyəti*

Bizim vəzifəmiz apardığımız audit əsasında bu maliyyə hesabatları üzrə rəy ifadə etməkdir. Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar bizdən etik normalara riayət etməyi və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.
Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlamalar barədə audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli səhvlər riskinin qiymətləndirilməsi auditorun mühakiməsindən asılıdır. Bu risklər qiymətləndirilərkən auditor müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisənin maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsinə aid olan daxili nəzarət elementlərini nəzərə alır, lakin bu zaman müəssisənin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmür. Auditə həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir.
Hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

**RƏY**

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2018-ci il tarixinə "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkəti üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

**Rafiq Namazəliyev**

**Direktor**

**Fuad Namazəliyev**

**Auditor**

11 mart 2019-cu il
Bakı, Azərbaycan Respublikası